Ədəbiyyat qəzeti

# Yumma gözlərini - hər yan aydınlıq olsun

**Sən indi yanımda**
**yepyeni bir türkü kimisən,**
**Heç görmədiyim ulduzlar**
**gözlərində doğmuş.**



**Attila İLHAN**

## RÜZGAR GÜLÜ

Önümdən çəkilsən,
İstanbul görünəcək,
Harada olduğumu biləcəyəm.
Tül-tül sislər çəkiləcək,
Dodaqlarının,
burnunun ucundan öpəcəyəm.
Saçlarına qəlbimi taxacağam,
Ovucunda bir şeir böyüyəcək -
Harada olduğumu biləcəyəm.

Məni nə hala saldı
bu çılpaq gecə,
Məni nə hala saldı
bu yanıq türkü?
Dəliyəm, nəyəm?
Bütün şüşələri
vurub sındırmaq istəyirəm...
Kirpiklərimdən
misra-misra şeir tökülür,
Konqodayam,
konqolular kimi həm qapqara,
həm də yalnızam,
Limanda,
bir köhnə gəmidə
Malaziyadan yük gözləyirəm...
Önümdən çəkilsən,
İstanbul görünəcək,
Harada olduğumu biləcəyəm.

Gözlərini yumma -
işığa möhtacam,
Gözlərini yumma -
hər yan aydınlıq olsun...

Bütün mövsümlərdə -
yaz, yay, payız, qış demədən -
rüzgar gülünü axtaracağam...

Bilirəm,
Oranda, Pernanboucda,
Tombuktuda
Yük kranları,
göy üzündən ağır-ağır axşamları
endirəcəklər -
Yenə qaranlığa bulaşacağam...
Yumma gözlərini -
işığa möhtacam,
Yumma gözlərini -
hər yan aydınlıq olsun...

İkimiz iki sünbül olsaq,
Sən mənim olsan,
mən sənin olsam,
Gecənin bir vaxtında
ağlıma gəlsəm,
Yuxunu tutsam,
buraxmasam,
Səni qucaqlasam, qucaqlasam,
Bir-birimizin qəlbini dinləsək,
Dünyanın qəlbini dinləsək,
Nəhəng-nəhəng tonqallar
çatsalar,
İki göyərçin uçurtsalar,
Harada olduğumuzu bilsək...

## AYDINLIQ NƏYİNDİ SƏNİN

Aydınlıq nəyindi sənin,
Göy üzü əqrəban-filanmı?
Məni görər-görməz
gözlərində şimşəklər çaxır,
yalanmı?
Ay işığının mavisi
dodaqlarındanmı,
İşıqmı,
uzay tozlarımı,
ulduzlarmı
o geyindiyin?
Əlimə toxunduğu an əlin
Günəş açıram, günəş...
Düzünü de,
aydınlıq nəyindi sənin?

## BAZAR ERTƏSİ

Bu gün bazar ertəsi,
Sənin, deyəsən,
beş dərsin olacaq.
Yenə
dəhlizdəki güzgüdə
daradın saçlarını,
Tələsmək lazımdı,
geciksən, tramvay gedəcək,
və müəllimə
yenə asıb-kəsəcək səni...

Bu gün bazaar ertəsi...
Dünən bazar idi -
Bəlkə
evdə qalıb,
hansısa balerinanın
rəsmini çəkirdin,
Qulaqlarında
uzaqlardan gələn
bir piano səsi,
Bəlkə sevincliydin,
Bəlkə bir niyyətin vardı,
Bəlkə bir yağış kimi
yağarkən xatirələr
ya sən bir küçədə,
bir ağacın altında
mənə rast gələcəkdin,
ya da mən
dəlisov külək kimi
böyürdən çıxacaqdım...
Amma bu gün bazar ertəsi,
Sənin, deyəsən,
beş dərsin var.
Yenə
dəhlizdəki güzgüdə
daradın saçlarını,
Tələsmək lazımdı,
geciksən, tramvay gedəcək
və müəllimə
yenə asıb-kəsəcək səni...

## HANNELİSƏ

Bilirəm,
Günortadan sonra
yağışın içindən
çıxıb gələcəksən, Hannelisə.
Bir kafedə
qrands boulevards
türküsünü çalacaqlar.
Ətrafımızda
Paris və ağacların yarpaqları
sapsarı saralacaq,
Qanadlarını
Sena çayına çırpa-çırpa
bir rüzgar əsib keçəcək
və Qare dorleansda
saat üçü çalacaq...

Yağışın içindən
çıxıb gələcəksən, Hannelisə,
Gözlərin mavimi, mavi,
Əllərin uşaq əllərimi,
uşaq əlləri...
Və limanda
balıq tutan bir qoca
qarmağı boşa çıxınca
sulara atacaq
siqaretinin kötüyünü...
Həmin an,
yəni günortaüstü, Hannelisə,
bir kafedə
qrands boulevards
türküsünü çalacaqlar...

Qəlbimizdə nədirsə, odur:
Sən
mütləq Lixşteyn dühalığından
bəhs edəcəksən.
Mən içimdə
müstəsna bir
atəş bağçası salacağam,
gilənar çiçəyi kimi bəyaz, bombəyaz,
Hannelisə...

## PUSQUDAKI EŞQ

Gecə - bir anda ulduz-ulduz,
Bağça - bir anda çiçək-çiçək.
Uzaqdan dənizin ətri gəlir,
Nə düşünür,
görəsən, otların üstündə
işıldayan böcək?

İçim - bir anda mimoza-mimoza,
İçim - bir anda aydınlıq-aydınlıq,
Deyəsən, yepyeni bir eşq
pusquda dayanıb,
Deyəsən, üstümə atılmaq istəyir...

## DİALEKTİK QƏZƏL

Böyük bir şaşaadır ölüm,
Əbruli nurlarla gəlir.
Öylə bir yanardağdır ki, öfkəsi
Mutantan desturlarla gəlir.

Karşıtıyla yüklüdür hər şey,
Mütləq çarələrdən vaz keç.
Ən mükəmməl mükəmməlliklər
Nə gizli qüsurlarla gəlir.

Sən sən ol, qorxma qaranlıqdan,
Ək işıq çəyirdəklərini.
Çünki ən bərraq sular belə
Ən qatı çamurlarla gəlir.

Nasıl doğmaqla başlarsa ölüm,
Ölməklə başlar öylə həyat.
Bil ki, dünyanı sarsan sıçramalar
Birikmiş şüurlarla gəlir.

## ÖLÜM

Qorxacaq bir şey yox,
haqq-hesab tamam.
Növbəm çatdımı,
gülə-gülə gedəcəyəm.
Özümü hazırladım belə...
Öncə Məmməd,
arxasından Ömər, Haybo,
Daha sonra Varujan,
sonra Nurəddin,
Sonra mən deyiləmsə,
demokrat Toni,
Sonra o deyilsə,
mütləq mənəm,
Özümü hazırladım belə...
Qorxacaq bir şey yox,
növbəm çatdımı,
Haqq-hesab tamam.
gülə-gülə gedəcəyəm...

## HƏRB VƏ EŞQ

Sən indi yanımda
yepyeni bir türkü kimisən.
Heç görmədiyim ulduzlar
gözlərində doğmuş.
Dağlar kimi
bir böyüklük duyğusu
ürəyində.
Ah, sən demə, xoşbəxtlik
belə olurmuş.
Yağış həp böyləmi
yağacaq xatirələrə,
Çatmayan bir şey var
sənə və mənə dair.
Bəlkə bir rüzgar,
bəlkə rüzgardan da xəfif...
Amma qəlbimiz yenə
uzaq bir dəniz kimi bomboş,
Heybətli gurultuların
doğduğu saatlarda.
Sən indi yanımda
yepyeni bir türkü kimisən.
Ah, bu hərb bitsə, biz nəfəs alsaq.
Kimsələr, kimsələr
çıxmasın yolumuzun üstünə,
Yağış yağsın,
islatsın saçlarımızı,
Yox olsun köksümüzdəki darlıq,
Dilimizdəki kilid,
qolumuzdakı zəncir,
Biz ya çox tez,
ya çox gec doğulmadıq ki,
sevgilim?
Amma buna rəğmən,
xoşbəxtliyə hələ də inanırıq...

## ƏRİK AĞACI VƏ MƏN

Ərik ağacının
harasından baxsam
gözüm qamaşır -
Çiçək içində üzür yarpaqları,
İşıq içində üzür yarpaqları...

Amma mənim
yarpaqlarım tökülür,
üsul-üsul...
Axşammı olmuş,
Payızmı gəlmiş?..

## ÜZÜNTÜ

Məni qoyub getmə, nə olar?
Durduğum yerdə dur,
Özünü
qağayılarla bir tutma.
Onların qanadları var,
səninki yox...
Yorulub,
yarı yolda qalarsan,
Məni qoyub getmə, nə olar?

Dənizin sahilində otur,
Gəmilər sənsiz getsin qoy.
Hər kəs kimi yaşasana.
İşinə-gücünə baxsana...

Evlənərik,
uşaqlarımız olar...
Məni qoyub getmə, nə olar,
Uşaqlarımızı
qoyub getmə, nə olar?



## BELMA SEBİL

Mən səni
Kallavi küçəsində gördüm,
ilğım kimi,
xəyalət kimi...
Birdən-birə qeyb oldun,
Bütün qapıları döydüm,
adını sordum -
Bilən olmadı,
Bilən olmadı.
Mən səni
Kallavi küçəsində gördüm,
ilğım kimi,
xəyalət kimi...
Gözlərinin mavisi,
saçlarının sarısı
qaldı ağlımda
və Belma Sebil adını
yaraşdırdım sənə...

Kallavi küçəsində göyərçinlər
və səhər vaxtı
İstanbul pırıl-pırıl,
Bir kafeyə girdim,
amma gözüm bayırda -
Belma Sebilim keçər deyə...
Bunca il sönmədi ümidim,
Apreldə deyilsə, mayda,
Şənbə deyilsə, bazarda
Mən
Belma Sebilimi tapacam...

## MƏNCƏ, MƏLUMDUR

Tikanın
qəlbimə batdığı
bir payız günüdür.
Sən əllərini
buludların içində gəzdirirsən.
Buludlar gözlərinin üstündə,
İçini qurdlar gəmirir,
Məncə, məlumdur niyə?
Tərləmiş şüşələrin arxasında
masmavi üzün,
Əllərin uşaq əlləri.
Həp
kimsənin bilmədiyi
türküləri düşünürsən,
Onlar
niyə həmişə
məktəb türküləri olur
və qara torpaqda
açıq yaşıl bir ulduz kimi
axıb gedən süleymancıqdan
bəhs edir?
Məncə, məlumdur niyə?

Səndən asılı deyil
axşam sərinində üşüməyin,
Qaranlıqda bir şeylər
qopub dağılır,
Uzaqdan yad səslər gəlir,
Sən əllərini
buludların içində gəzdirirsən,
Əllərin xəyallarımı dağıdır,
Məncə, məlumdur niyə?

## BELƏ BİR SEVGİ

Nə qadınlar sevdim -
əslində yoxdular.
Yağışdan don geyərdilər,
payızla bir.
Azacıq oxşasam - sanki çocuqdular,
Buraxsam - təlaşdan gözləri nəmlənərdi...
Nə qadınlar sevdim -
əslində yoxdular.
Belə bir sevgi görünməmişdir,
Elə düşünməyin məni unutdular,
Hələ ara-sıra məktubları gəlir.
Həqiqət deyillər, amma ümiddilər,
Əski bir türkü, əski bir şeir...
Nə qadınlar sevdim -
əslində yoxdular,
Belə bir sevgi görünməmişdir.

Yalnız vaxtlarımda
əlimdən tutdular.
Uzaq nəfəsləri içimi isidir.
Sanki göy üzündə bir buluddular.
Hara qeyb oldular indi, kim bilir?
Nə qadınlar sevdim -
əslində yoxdular.
Belə bir sevgi görünməmişdir.



*Hazırladı:*
***DİLSUZ***